Academic Journal of History and Idea Академическая История и Мысль
Akademik Tarih ve Düşünce Dergisi
ISSN: 2148-2292
*Araştırma Makalesi* https://doi.org/10.46868/atdd.127 *Original Article*

# Azərbaycan siyasi xadimlərinin XX. əsrin əvvəllərində mövcud olan siyasi sistemlərdəki yeri

**Rahim Həsənov***
**ORCID: 0000-0003-4621-1798**

**Xülasə**

XX əsrin əvvəllərindən başlayaraq, Rusiya imperiyasında siyasi partiya və təşkilatların fəaliyyəti daha aktiv səciyyə almışdı. Belə ki, 1905-1907-ci illər inqilabı gedişində çar tərəfindən siyasi partiyaların açıq fəaliyyətinə icazə verilməsi, imperiyada siyasi aktivliyin artmasına gətirib çıxardı. Həmin dövrdə imperiyanın bir parçası olan Azərbaycanda da siyasi aktivləşmə prosesləri gedirdi. Lakin bütün ölkədə olduğu kimi Azərbaycanda da siyasi eklektizm mövcud idi. Milli elitanın həmin dövrdə vahid siyasi xətt yürütməsi qeyri mümkün olduğundan, dövrün xadimlərinin fikir istiqamətlərinin tədqiqində çətinliklər yaranır. Romanovlar xanədanının süquqtundan sonra isə bu çətinliklər daha da artmış olur. Belə ki, əsas fikir istiqamətləri çar rejiminə qarşı mübarizə olan partiyaların böyük əksəriyyətində siyasi proqram dəyişikliyi baş verdiyindən, onların siyasi addımlarının araşdırılması prosesində tərs mütanasib fikirlər formalaşır.

**Açar sözlər:** Türkçülük, islamçılıq, liberalizm, romantizm, realizm

**Gönderme Tarihi: 25/03/2021** **Kabul Tarihi:29/05/2021**

* *Araştırma Görevlisi, Azərbaycan Milli Elmlər Akademiyası Şəki Regional Elmi Mərkəzi şöbə müdiri, Şəki, Azərbaycan, raqimhist@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
HƏSƏNOV, R., ‘’Azərbaycan siyasi xadimlərinin XX. əsrin əvvəllərində mövcud olan siyasi sistemlərdəki yeri’’, *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 2, 2021, s.703-718.

# The place of Azerbaijani political figures in the existing political systems of the early XX century

**Rahim Hasanov**[*]

**ORCID: 0000-0003-4621-1798**

## Abstract

At the beginning of the early twentieth century, the activities of political parties and organizations in the Russian Empire became more active. Thus, the Tsar tolerated the open participation of political parties during the 1905-1907 revolution, which led to an increase in political activity in the empire. At that time, Azerbaijan was also in the process of political activism as part of the empire. However, as in the whole country, there was political eclecticism in Azerbaijan as well. Since it was impossible for the national elite to pursue a single political line at that period, there were difficulties in studying the views of the figures of the time. These difficulties increased after the fall of the Romanov dynasty. Therefore, due to the change in the political program of the vast majority of parties whose main views are the struggle against the Tsarist regime, in the process of analyzing their political step, disparate views are formed.

**Keywords:** Turkism, Islamism, liberalism, romanticism, realism

**Received Date: 25/03/2021** **Accepted Date: 29/05/2021**

[*]*Research Assistant, Azerbaijan National Elmər Academy Şəki Regional Elmi Center Branch Manager, Şəki-Azerbaijan, raqimhist@mail.ru*

***You can refer to this article as follows:***
HƏSƏNOV, R., ‘’Azərbaycan siyasi xadimlərinin XX. əsrin əvvəllərində mövcud olan siyasi sistemlərdəki yeri’’, *Academic Journal of History and Idea* , Vol. 8, Issue 2, 2021, 2021, p.703-718.

# Место азербайджанских политических деятелей в существующих политических системах в начале XX века

**Рагим Гасанов***

**ORCID: 0000-0003-4621-1798**

**Резюме**

С начала XX века в Российской империи активизировалась деятельность политических партий и организаций. Таким образом, во время революции 1905–1907 гг. Царь допустил открытую деятельность политических партий, что привело к усилению политической активности в империи. В то время Азербайджан, входивший в состав империи, также находился в процессе политической активности. Однако, как и в остальной части страны, в Азербайджане была политический эклектизм Поскольку в то время национальная элита не могла проводить единую политическую линию, возникли трудности с изучением взглядов деятелей того времени. После падения династии Романовых эти трудности усилились. Так как, основными взглядами которых являлся борьба с царским режимом, в связи с изменением политической программы подавляющего большинства партий, в процессе анализа своих политических шагов формируются разнородные взгляды.

**Ключевые слова:** тюркизм, исламизм, либерализм, романтизм, реализм.

**Получено: 25/03/2021** **Принято: 29/05/2021**

**Научный сотрудник, Азербайджанская Национальная Академия Эльмэра Заведующий филиалом Регионального Центра Эльми в Оки, Шеки- Азербайджан, raqimhist@mail.ru*

***Ссылка на статью:***
HƏSƏNOV, R.,‘’Azərbaycan siyasi xadimlərinin XX. əsrin əvvəllərində mövcud olan siyasi sistemlərdəki yeri’’, *академическая история и мысль,* T.8, NO.2, 2021, C.703-718.

## Giriş

XX əsrin əvvəllərində çarizmin müstəmləkə siyasəti, Azərbaycan ziyalılarının məruz qaldıqları iqtisadi və siyasi məhdudiyyətlər, onlarda müxalifət əhval-ruhiyyəsinin güclənməsi, ziyalıların öz millətindən olan zəhmətkeşlərlə birləşməsi üçün zəmin yaradırdı. Azərbaycan milli hərəkatının ideoloqları çar mütləqiyyətinin vəd etdiyi islahatlar yolu ilə öz tələblərinin yerinə yetirilməsinə nail olmaq niyyətində idilər.

XX əsrin əvvəllərində Azərbaycan xadimlərinin bir sıra siyasi cərəyanlarda yer alması, onların fəliyyətinin araşdırılması zamanı böyük əksəriyyət tarixçiləri çətinliklərlə üz-üzə qoyur. Məsələ ondan ibarətdir ki, əsrin əvvəllərində Azərbaycan siyasi xadimlərinin bir hissəsi sosialist, bir hissəsi millətçi, az da olsa bir hissəsi isə islamçı istiqamətdə yer almışdı. M. Ə. Rəsulzadə kimi siyasi xadimərin böyük əksəriyyətinin əsrin əvvəllərində sosialist hərəkatda yer alması və millətçilkdən uzaq olması, ziddiyyət tendensiyasını daha da artırır. Siyasi xadimlərin bir hissəsinin 1905-1907-ci illərdə rus siyasi partiyalarının, əsasən Eser və Kadet siyasi bloklarında yer almaları, sosialist yonümlü siyasi xadimlərin isə mətbuat səhifələrində onları tənqid etmələri, məsələnin əsl üzünü aşkar etməkdə çətinlik yaradır. Ancaq nəzərə alınmalıdr ki, həmin dövrdə Rusiya imperiyasının bütün xalqları, həmçinin Azərbaycan xalqında vahid siyasi xəttin olmamasını, siyasi xadimlərin fəaliyyətində fikir dəyişikliyinin baş verməsini, təbii qarşılamaq lazımdır. F. Ələkbrov haqlı olaraq qeyd edir ki, "millətin həyatında yalnız bir ideyanın olması və onun əsasında milli ideologiyanın təşəkkül tapması çətindir. Burada ən yaxşı halda hansısa milli ideyanın aparıcı rolundan bəhs oluna bilər.[1]

### 1-Siyasi xadimlər fikirlərində islamçılıq və sosialist meyilliliklər

XX əsrin əvvəllərində Azərbaycan siyasi xadimlərinin siyasi fikir istiqamətlərini sol və sağ meyilliyə bölmək məqsədəuyğundur. Həmin siyasi meyilləri tam aydınlaşdırmaq üçün onların özləri, sağ mühafizəkar, sağ mərkəzçi mühafizəkar, solçu liberal, sol mərkəzçi liberal, ideal demokrat, sosial demokrat, realist və liberal-demokratlara ayrılarsa yanlışlıq

[1]Faiq Ələkbərov, *Milli ideologiya problemlərinə taixi-fəlsəfi baxış,* ikinci hissə Bakı- Təknur, 2014, 587, s.25.

olmaz. Nəzərə alınmalıdır ki, sözügedən istiqamətlərdəki ideal demokratlar ayrı ayrılıqda mövcud ola bilməzdi. Onlar əsasən hər hansı bir siyasi meyilliliyin tərkibində yer alırdı. Burada ideal demokrat dedikdə tam siyasi, milli mərkəzçilik nəzərdə tutulur. Belə bir siyasi mövqeyin isə XX əsrin əvvləllərində mövcud olması mümkün deyildi. Çünki imperiya mütləq monarxiya rejimində illər boyu yaşamış şəxslərin belə bir siyasi fikir mərkəzçiliyini formalaşmasına imkan verə bilməzdi. Bir sıra siyasi xadimlərin xariçdə təhsil almaları da buna kifayət deyildi. Çünki ərazidə ümumi eklektik siyasi aura hökm sürürdü.

İlk növbədə siyasi xadimlərin qısa müddətdə fikir dəyişkənliyinin səbəblərini araşdırmaq üçün dövrün siyasi-iqtisadi və sosial durumuna da nəzər yetirilməlidir. Əsrin əvvəllərində imperiyanın istibdad siyasətinin güclənməsi, Rus-Yapon müharibəsində məğlubiyyət, ölkədəki sosial ziddiyyətləri artırdı. Bu baxımdan sosialist hərəkatın vüsət alması prossesi sürətlənmişdi. Buna görə Azərbaycan siyasi xadimlərinin də, həmin dövrdə sosialist hərəkatda yer alması təbii qarşılanmalıdır.

XX əsrin əvvəllərində Rusiya imperiyasında formalaşan siyasi partiyaların böyük əksəriyyətinin ümumi bir düşmən hesab etdikləri mütləqiyyətə və istibdada qarşı mübarizə məsələsi, siyasi proqramlarının əsasını təşkil edirdi. Bu isə Azərbaycan ziyalılarının da siyasi fikirlərində də öz əksini tapmışdı. M. Ə. Rəsulzadə, M. H. Hacınski, kimi ziyalıların siyasi düşüncələrində əsas qayənin Romanovların istibdadına qarşı eyni fikirdə olmalarını və əsasən də, bu fikirlərdə sosializm istiqamətinə yönümlülük, əvvəllər onların bir çox araşdırmaçılar tərəfindən sosilaist və ya bolşevik cərəyanında yer almaları fikirinə gəlməyə sövq etmişdir.

1904-cü ildə Bakıda Hümmət təşkilatının yaradıldı və təşkilatda M. Ə. Rəsulzadə, M. H. Hacınskinin yer almışdılar.[2] Onların bu təşkilatda yer almaları yuxarıda göstərilən ziddiyyətləri daha da dəriləşdirir.Firuz Kazımzadə kitabında qeyd edir ki, imperiyanın tərkibindəki əzilən xalqlarda, əsasən də müsləmanlarda, Karl Marks və Cəmaləddin Əfqaninin ideologiyalarının təsiri böyük olmuşdur. Gənc Azərbaycan intellegensiyasının böyük bir hissəsi, RSDFP-na qoşulmuş, Hümmət təşkilatı yarandıqdan sonra isə onun

[2]Nəsib Nəsibzadə, *Müsavat və Müsavatçılıq*, Yeni Müsavat № 1 (18) , 1991.

ətrafında birləşmişdi.[3]Azərbaycan Xalq Cümhuriyyətinin parlament üzvlərindən İ. Əbilov, M. Şeyxülislamov da Hümmət təşkilatında yer almışdılar.[4] Lakin əsrin əvvəllərində bu siyasi xadimlərdəki sosialist meyillilikIə bolşevizmi qarışdırmaq yanlışlıqdan başqa bir şey deyil.

Doğurudur, XX əsrin əvvəllərində Azərbaycan siyasi xadimləri Rusiyanın sosial-demokrat hərəkatında fəal iştirak edirdilər. Bu ümumi bir problem olan Romanovlar xanədanının mütləqiyyətinə qarşı birgə mübarizə ortaqlığından irəli gəlirdi.[5]F.Kazımzadə bu məsələ haqqında vurğulayır: Azərbaycan siyasi xadimləri həmin hərəkatlarda iştirak etmələrinə baxmayaraq, yer aldıqları partiyalar və siyasi təşkilatlarda qərarlaşa bilmədilər.O, bunu haqlı olaraq istəklərin və dünya görüşlərin fərqli olmasından irəli gəldiyini qeyd edridi .[6]Ancaq F. Kazımzadə milli ziyalılarımızın həmin sosialist partiyalardan uzaqlaşmasının əsas səbəbi kimi iri burjuaziyanın köməyi ilə mövqelərini möhkəmləndirmək istəyini göstərərək yanlışlığa yol verir. Çünki xalqın tapdalanmış milli şurunun aradan qaldırılması üçün həmin sosialist partiyaların proqramları uyğun gəlmirdi. Həqiqətən də, sosialist partiyaların proqramlarında milli məsələ arxaya çəkilərək, sinfi məsələ qabardılırdı. M.Ə. Rəsulzadə o dönəmdə özünü milli müxalifətin, Bakıdakı bolşevik və menşevikləri isə Rusiya Sosial-demokrat işçi Partiyasının nümayəndəsi kimi təqdim edirdi.[7] Bu ziddiyyəti anlayan Azərbaycan siyasi xadimləri 1905-ci il I Rus inqilabı illərində həmin təşkilatları tərk etdilər.[8]

1907-ci ildə hakimiyyət orqanları Hümmətin bağlanmasına qərar verdilər [9] . Ümumiyyətlə həmin dövrün bolşevikləri ilə 1920-ci ildə Azərbaycanı işğal etmiş bolşevikləri və onların ideologiyalarını eyniləşdirmək də yanlışlıqdan başqa bir şey deyil. Nəsiman Yaqublu haqlı olaraq qeyd edir ki, Azərbaycanın istiqlalı elan olunub müstəqil bir dövlət halında yayıldığı dövrdə belə Hümmətin istiqlalçılıq prinsiplərini qəbul edən, Azərbaycan Sovet Respublikası şüarı ilə, məmləkətimizin azadlığını Rusiyada axtaranlara

---

[3]Firuz Kazemzade, *Borba za Zaqafqazye (1917-1921),* SA, SS Press Stoqolm 2010, s.30.
[4]*Azərbaycan tarixi* ,yeddi cilddə, V. C. Bakı 2008, 672, s. 116.
[5]Faik Elekberov, *Muhammed Emin Rasulzade-nin Dünya görüşü,* Buğra yayınevi, Konya 2014 256, s. 68.
[6] Firuz Kazemzade, *Borba za Zakavkazye* , CA CC PRESS Stokqolm 2010 (1917-1921) 328, s.30.
[7] F. Elekberov, *a.g.e.*,s.71.
[8]Nəsiman Yaqublu, *Müsavat partiyasının tarixi,* Adiloğlu Bakı 2012, 201, s.31.
[9]Mehmet Saray, *Azərbaycan türkləri tarixi,* ( Yayın evi yok) İstanbul 1993, 301, s. 32.

müxtəlif mövqedən yanaşmaq lazımdır.[10] F Kazımzadə göstərir ki, Rəsulzadə RSDFP-nin Bakı təşkilatında yer almışdı və onun Cabaridze və Əzizbəyov kimi bolşeviklərlə şəkilləri var.[11] Mirzə Davud Hüseynov qeyd edirdi: "Bu adamlar hələ 1905-ci ildə Rusiya Sosial Demokrat Fəhlə partiyasının Bakı təşkilatının üzvləri idi. Birinci inqilabdan sonra fəhlələrdən uzaqlaşdılar, sonra isə inqilab işini tamamilə dəyişdilər və öz təşklatlarını qurdular.[12]Doğrudur, həmin şəxslər Hümmət təşkilatında yer almışdılar. Amma bu dövr üçün həmin təşkilata sırf bolşevik təşkilatı kimi baxmaq yanlışlıqdan başqa bir şey deyil. Yusif Rüstəmov qeyd edir ki, "Hümmət təşkilatında fəaliyyət göstərən M.Ə. Rəsulzadə qrupunun üzvləri, Müsavat partiyasının üzvləri, xalqın milli mübarizəsi yolunu istiqamətləndirməyə çalışırdılar.[13] Təşkilatın siyasi yönümünün sosial-demokrak olması onların boşevik kimi qələmə verilməsinə rəvac vermir. Həm də təşkilatın ilkin fəaliyyətində milli məsələlər də qabardılmışdı. Məsələn, millətlərin öz müqəddəratını təyin etmək, muxtar vilayətlər yaratmaq kimi şüarların irəli sürülməsi, təşkilatın II qurultayında ayrıca müddəa kimi daxil edilməsi ( 9-cu bənd) bunu sübut edir.[14]

Əsrin əvvəllərində M. Ə. Rəsulzadənin aşağı təbəqənin güzəranı ilə bağlı məqalələrində, sosialist meyilliliyik islami anlamda öz əksini tapmışdır. Məsələn, Şərqi Rus qəzetindəki məqalələrinin birində yazırdı: "Ta Allah da bizim əlimizdən tutsun. Hədisi şərifi-nəbəvi varid olubdur ki, füqəraya əl tutaq[15]. Məsələn islami dəyərələrə söykənib nəzəriyyəsini zənginləşdirən Ə. Ağaoğlu əsrin əvvəllərində sosializmi islam dininə zidd hesab etməyərək, onun əsas qayəsini bəşər övladının mənəvi və maddi sərvəti hesab etmişdi.[16]

---

[10] N. Yaqublu, *a.g.e.*, s. 31.
[11] F. Kazemzade, *a.g.e.*, s. 31.
[12] M.D. Quseynov, *Turkskaya demokraticeskaya partiya federalistov Musavat v proşlom i nastoyaşim*, Bakı (Yayın evi yok) 1977 337, s. 223.
[13]Yusif Rüstəmov, *Siyasi Hüquqi təlimlər tarixi (mühazirə kursu)* Bakı Azərbaycan universiteti nəşriyyatı , 2004, 320, s.295.
[14]Dilarə Seyidzadə, *Azərbaycan XX əsrin əvvəllərində müstəqilliyə aparan yollar*, Bakı, 1998, 254, s. 124.
[15]Məhəmməd Əmin Rəsulzadə, *Hünmət və qeyrət vaxtıdır*, Şərqi Rus № 19 14 may 1903, s.3.
[16]Qədim Mustafayev, *XX əsrrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onu tənqidi,* Bakı, Maarif 1973, 296, s. 172.

Lakin o sonrakı dövrdə bu məsələni təkzib edir[17]. Ancaq M. Ə Rəsulzadənin siyasi fikirlərində zamanla səthi dəyişkənliklər olsa da, onun ideologiyası demək olar ki, vahid süjet xəttinə daha yaxın olmuşdur.

M.Ə. Rəsulzadənin mətbuatdakı yazılarına diqqət yetirdikdə , islami ideyalarla öz sosialist fikirlərini irəli sürməsi ortaya çıxır. Yəni M. Ə. Rəsulzadə başqa ziyalılardan fərqli olaraq, islami dəyərlərlə sosialist ideologiya arasında heç bir uçurumun olmamasını sübut etməyə çalışmışdır. 1906-cı il İrşaq qəzetində o yazırdı: "İslamiyyət hürriyyəti- məhz olub, hər bir əsası ictimaiyyət üzrə bina olunduğu bir zamanda biz istibdadpərəst oluruz. Cəmi taifələr dinimizin üsullarından olan hürriyyət və ittihadi-beynəlmiləli ararkən, bizlər istibdad və nifaqı axtarıyoruz".[18] Burada onun "ittihadi-beynəlmiləliyə" məsələsinin bir başa sosialist ideyalara əsaslanması öz əksini tapır. M. Ə. Rəsuzadənin bu fikiri Ə. Hüseynzadənın də siyasi konsepsiyalarında yer almışdı. O da islamiyytələ sosial-demokratiyanın ziddiyyət təşkil etmədiyini sübut etməyə çalışmışdır.[19] M. Ə. Rəsulzadə fevral inqilabından sonra belə Açıq söz qəzetindəki islam tarixi ilə bağlı məqaləsində yazırdı ki, demokratiya və sosializm ideyaları islama zidd deyildir, əksinə onun əsas müddəalarına müvafiq gəlir.[20] Yəni o inqilabdan sonra tam milli mövqedə dayanmasına baxmayaraq əsrin əvvəllərində olduğu kimi idealoji fikirlərində islami və sosialist dəyərlərə müəyyən dərəcədə söykənmişdir.

M. Ə. Rəsulzadənin əsrin əvvəllərində Rusiya imperiyasındakı türk-müsəlman əhalisi arasında islamçılığın millətçiliyə nisbətdə güclü olmasına görə, onun bu aspektdən xalqı maarifləndirməyə çalışması realist mövqedə dayanmasını sübut etmiş olur. Bu isə romantizm meyilli, istər sosial demokrak, istərsə milli liberal yönümlü siyasi xadimlərdən fərqli olaraq öz idealogiyasını tam əks etdirməyə və gələcəkdə siyasi fikirlərini qətiləşdirməyə imkan vermişdir. Məsələn, o Dirilik məcmuəsində yazırdı: "Əcələ bir surətdə maddətən tərəqqi edib də mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib, mənəviyyatca müstəqil qalmağı tərcih edərəm, cünki milliyyətin də, bəşəriyyətin də faidəsi

[17] Əhməd Ağaoğlu, *Millət və millətçilik,* Tərəqqi qəzeti 1909 22 yanvar №16 N 19 29 yanvar №22 5 fevral №28.
[18] Məhəmməd Əmin Rəsulzadə, *Edam cəzası,* İrşad № 208 4 sentyabr 1906 s.2.
[19] Hüseynzadə Əli bəy, *Seçilmiş əsərləri* Bakı, " sərq-qərb" 2007 480, s.113-114.
[20] Məhəmməd Əmin Rəsulzadə, *Hümmətiül-rical, təqləül-cibal,* Açıq söz, 5 iyun 1917 № 513 s. 2.

bundadır”.[21] Ə. Ağaoğlu, Ə. Hüseynzadə öz yazılarında islamın müsəlmanların həyaında ən keçilməz, ən fəal element rolunu oynadığını vurğulayır, müsəlmanlar ya məhv olub yer üzündən silinməli, ya da din vasitəsilə sağalmalıdırlar kimi fikirlər irəli sürürdülər[22]. Ancaq M. Ə. Rəsulzadənin fikirlərində belə siyasi romantizm meyilli ideyalara rast gəlinmir. Səlahəddin Xəlilov doğru olaraq qeyd edir ki, “bəzən eyni bir ideya müxtəlif dövrlərdə, fərqli coğrafi məkanlarda müstəqil surətdə irəli sürülür; bu halda tarixi ilkinlikdən daha çox, məhz hansı ideyanın, hansı fəlsəfi fikrin sonrakı inkişaf prosesinə təsir göstərməsi daha önəmli olur”.[23]

Onu da qeyd etmək lazımdır ki, bolşeviklər də əsrin əvvəllərində, hətta 1917-ci il fevral inqilabına qədər öz fikirlərində klassik sosial-demokrat ideyaların böyük əksəriyyətini dəstəkləyirdilər və onlarda bolşevik diktaturası yaratmaq kimi elementlərə hələ rast gəlinmirdi. Hətta 1917-ci il fevral inqilabının birinci mərhələsində belə bolşeviklər menşeviklərlə vahid sosial-demokrat təşkilat halinda birləşmişdilər və sosial demokrat təşkilatlar arasında ixtilaflar yaranmamışdı.[24] Həm də, yuxarıda göstərildiyi kimi car rejiminə qarşı ideyaların cəmləşdirilməsi, M.Ə. Rəsulzadə və silahdaşlarının, ümumiyyətlə siyasi xadimlərin böyük əksəriyyətinin fikirlərini yalnız bir nöqtəyə cəmələşdirmələrinə səbəb olmuşdu.

### 2-Siyasi xadimlərin fikirlərində liberalizm istiqamətləri

Əsrin əvvəllərində siyasi xadimlərin fikir istiqamətini tam müəyyənləşdirərkən çətinlik yaradan amillərdən biri də, liberalizm mövqeyində dayanan ziyalıların fəaliyyəti idi. Bu siyasi xadimlər içərisində başda Əhməd bəy Ağayev göstərilərsə yanlış olmaz. Əhməd bəyin, siyasi fikrinin formalaşmasında C.Əfqaninin böyük təsiri olmuşdur.[25] C. Əfqani əsrin əvvəllərində islahatçı islamçı kimi tanınan bir şəxs idi. Ancaq Ə. Ağaolunun siyasi fəlsəfi fikirlərində fərd azadlığı meylləri də olmuşdur. Onun fərd azadlığı konsepsiyası Fransada mövcud olan liberalların fikirləri ilə üst üstə düşürdü. Məsələn, Ə. Ağaoğlu islam dininin

[21]Nazim Cəfərov, *Milli ictimai fikir tariximizdən*, Azərbaycan dövlət nəşriyyatı Bakı, 1993. 80, s.15.
[22]Ağaoğlu Əhməd bəy, *Mərəzimizin çarəsi*, *Kaspiy 9 yanvar 1904.*
[23] Səlahəddin Xəlilov, *Fəlsəfə Tarix və Müasirlik, (fəlsəfi komparativistika)* Azərbaycan Universiteti nəşriyyatı, Bakı 2006, 420, s.17.
[24]*Azərbaycan tarixi* , yeddi cilddə 5 cild Bakı- Elm 2008, 693, s.295.
[25]G. Akalın, *Türk düşüncə və siyasi həyatında Ə. Ağaoğlu*, Az atam, Bakı 2004, s.18.

dövlətə, hüquqa təsirini qəbul etmir, bunun inkişafa mane olacağını qeyd edirdi.[26] Ancaq bununla bərabər onun siyasi fikirlərində "toplumun dinini qorunması üçün öncə milli mənliyi, müstəqilliyi olmalıdır" qeydləri, onun solçu-mərkəzçi-liberal yönümlü olduğunu sübut edir. Ə. Ağaoğlunun siyasi fikirlərində tam qərbmeyilliliyin olmaması onun M. Şaxtaxının fikirlərini tənqid edərək " "Şərqi Rus" bundan xilas olmaq üçün cəmiyyəti qərb dəyərləri ilə tanış etməklə yanaşı, Şərqin tarixi-fəlsəfi cəhətdən öyrənilməsinə həmvətənlərinin dünyaya baxışının və mənəvi həyatının yeniləşməsinə də öz tövhələrini verməlidir"[27] kimi fikirlərində öz əksini tapır. Yəni Ə. Ağaoğlu liberal-demokratiyaya meylli bir insan kimi formalaşmışdı. Onun islahatçı dünyagörüşü İslam dünya görüşündən türkçülüyə keçməsini asanlaşdırmışdı.

Azərbaycan ziyalılarının bir hissəsinin "İslam birliyi" ideyasından çıxış etməsi də təbii hesab edilməlidir. M. Ə. Rəsulzadə haqlı olaraq qeyd edirdi ki, "Azərbaycan türkləri arasında başlanğıcda milli oyanış dini çərçivədə olmuş, dinin elmlə zidd olmaması kimi mülahizələr irəli sürülmüş, bu mənada XIX əsrdə Qafqaz türkləri milli varlıq kimi özünü hələ göstərə bilməmiş, daha çox ümmətçilik mənasında din və məzhəbçiliyə meyl etmişdir.[28] Nəzərə alınmalıdır ki, Azərbaycanda İslamçılıq ideyası ətrafında yer alan siyasi xadimlərin böyük bir hissəsi İslam birliyinə əsasən mənəvi-əxlaqi dəyər kimi yanaşmışdır. Ə. Hüseynzadə və Ə. Ağaoğlu islam birliyi kimi ideyanı milliliklə paralel aparmışlar. Yəni islam bilriliyi ətrafında cəmləşən Azərbaycan siyasi xadimləri Ümumrusiya müsəlman xalqlarının radikal islamçı nəzəriyyəyə deyil, bu xalqların islami dəyərlərin mənəvi-estetik xüsusiyyətləri ətrafında birləşməyə və sonda milliliklə islami dəyərləri bir yerdə sintez şəkildə formalaşdırmağa çalışmışlar.

Doğrudur, əsrin əvvəllərində Əbdussalam Axundzadə, Yusif Ziya Talıbzadə kimi mühafizəkar islamçılar da mövcud idi. Onlar xalqın keçmişdən uzaqlaşması, köhnə ehkamların zəifləməsini bütün bəlaların mənbəyi kimi göstərirdilə.[29] Onların fikirincə müsəlmanların birliyə nail olmasının yalnız iki başlıca şərti var ki, onlardan biri

---

[26] G. Akalın, *a.g.e.,* s. 38.
[27]*Azərbaycan Mətbuat tarixi antalogiyası,* 2 cilddə Elm və təhsil Bakı 2011 297, s.230.
[28]Məhəmməd Əmin Rəsulzadə, *Qafqaz türkləri,* Bakı, Təknur 2012, 75, s. 42.
[29]Faiq Ələkbərov, *Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış,* İkinci hissə "Elm və təhsil" Bakı 2014, 587, s. 37.

Peyğəmbərin(s) Əhli beytini tanımaq, digəri quranın mahiyyətini dərk etməkdir.[30] Ancaq Azərbaycanın aparıcı siyasi xadimlərindən fərqli olaraq bu şəxslərin fikirləri Azərbaycan milli ideaologiyası və Ümumrusiya müsəlmanlarının siyasi fikrində dərin kök sala bilməmişdir. Həmin şəxsləri sağçı mühafizəkar meyilli bögüyə aid etmək olar.

**3-Siyasi xadimlərin türkizmə münasibətləri**

Əsrin əvvəllərində Rusiya imperiyası tərkibində siyasi türkizm meylləri artmışdı. Siyasi türkizmin banilərinin fikirlərinə görə Azərbaycan millət kimi deyil,"Vahid türk millətinin tərkibi" olmalı idi.[31] Bu fikrin Azərbaycançılığa zidd olmasına baxmayaraq, Azərbaycan milli azadlıq hərəkatının formalaşmasıda danılmaz rolu olmuşdur. M. Ertoğrul Düzdağ qeyd edir ki, Osmanlı dönəmində türkçülük cərəyanının yaranmasında" çar Rusiyası idarəsindəki Türk diyarlarından gəlmiş fikir və hərəkat adamlarının təsiri olmuşdur.[32] Məsələn, Ə.Hüseynzadə və Ə.Ağayevin XX əsrin əvvəllərində irəli sürdükləri ümumtürk idealı türk xalqlarının ümumi müsəlman konteksindən ayrılmasında katalizator rolu oynadı. Onların siyasi türkizm fikirləri əsasında türkləşmək, islamlaşmaq, müasirləşmək ideyaları formalaşdı və bu etnik konsepsiya ortaya qoyulduqdan sonra imperiya ərazisindki türk müsəlman əhalinin etnodinamik inkişafını başlatdı. Bunun nəticəsində isə gələcəkdə Azərbaycançılıq anlamının bünovrəsini qoydu. M.Ə.Rəsulzadə yazırdı: "Panislamizmdən xilas olan türk ictimai-siyasi fikri bidən-birə bu gün əsaslandırdığımız real milli ideyaya gəlib çata bilməzdi. Psixoloji cəhətdən bu anlaşılandır. Müharibə və ümumi təhlükə şəraitində islam birliyi kimi böyük və əhatəli şüardan imtina edən millətçilər onun əvəzinə eyni təsir gücündə bir şüar irəli sürməli idilər. Bu isə yalnız "Dunaydan Altaya qədər bütün Türk xalqlarının birliyi" şüarı ola bilərdi.[33]

İstər Ə. Hüseynzadənin istərsə də Ə. Ağaoğlunun siyasi fikirlərində islamçılıq türkçülük ideyaları, müsəlman türk xalqlarının sosial siyasi inkişafına təkan vermişdi. Onların nəzəriyyələri qərbi Avropa tarixçilərinin qələmə verdiyi "panislamist", Pantürkist" ifratçı meyillərdən uzaq idi. Ə. Hüseynzadə yazırdı: " Rusiya müsəlmanlarının və türklərinin guya

---

[30] Əbdussalam Axundzadə, *Müqəddəs peyğəmbərlərin tarixi,* Azənəşr, Bakı , 1993,187, s.7.
[31] Aydın Balayev, *Mamed Amin Rasulzade (1884-1955)* Moskva izd., "Flinta", 2009, 288, s.7.
[32] Ertoğrul Düzdağ, *Türkiyede islam ve irkçılıq meselesi,* Cihad, İstanbul, 1976, 341, s.350.
[33] Məhəmməd Əmin Rasulzade, *O panturkizme v svyazi c Kavkazskoy problemoy*, Oksford, 1985 186, s.64.

"panislamizm" ideyası ətrafında ittifaq və ittihad edərək Rusiya və Avropa üçün böyük təhlükə olduğu haqqında yazdıqları böhtandan başqa bir şey deyil.[34]

Əli bəy Hüseynzadənin ümumi siyasi fikirlərində türkçülük ideyası əsasən Osmanlı Türkiyəsinin dominantlığı ətrafinda formalaşması məsələsi, tarixçilər tərəfindən fərqli qiymətləndirlir. Məsələn Aydın Balayev onun Osmanlıçılıq siyasi fikirini tənqid edərək, başqa türk xalqlarının Osmanlı içərisində əritməyinin tərəfdarı olduğunu qeyd edir.[35] Faiq Ələkbərov isə Aydın Balayevin fikirləri ilə razılaşmayaraq, Ə. Hüseynzadənin "Osmanlı türkçülüyü" Azərbaycan türkçülüyü üçün ziddiyyət deyil təkanverici qüvvə kimi götürmüşdür.[36] Burada hər iki müəllifin fikirlərində müəyyən qədər həqiqət olsa da, onu qeyd etmək lazımdır ki, Ə. Hüseynzadə isitəmədiyi halda belə Osmanlı türklüyü idealogiyası reallığa çevrilsəydi, mütləq şəkildə olmasa da, Rusiya imperiyası tərkibində yaşayan xalqların ərimə prossesi baş verəcəkdi. Faiq Ələkbərov əsərində Ə. Hüseynzadənin türkçülük nəzəriyyəsinə mütləq haqq qazandıraraq, M. A. Şaxtaxtı kimi ziyalıların dil islahatına qarşı bu prisnsipin optimal olduğunu isbat etməyə çalışmışdı.[37] Müəllif osmanlıçılıq ideologiyasının anti qərb siyasətinə qarşı qoyulan sədd kimi qiymətləndirsə də, nəzərə almaq lazımdır ki, bu idealogiyada müəyyən dərəcədə romantizm ünsürləri mövcud idi. Yəni Osmanlı türkçülüyü məsələsinin həmin dövrdə reallaşması siyasi-sosial, iqtisadi və coğrafi baxımdan sıfıra bərabər idi.

Bundan başqa onu da qeyd etmək gərəkdir ki, Ə . Hüseynzadənin də fikirlərində zaman keçdikcə müəyyən dəyişikliklər baş vermişdi. Onun siyasi fikirlərində baş verən dəyişikliklərin əsas səbəblərindən biri kimi Osmanlı imperiyasının siyasət meydanındakı uğursuzluları göstərmək olar. M. Ə. Rəsulzadə qeyd edirdi ki, İstanbulun sosial reform aparmağa imkan verilmədi. Bu tarixi missiyanı gənc Azərbaycan götürdü.( M.Ə. Rəsulzadə Əsrimizin Siyavuşu . Xəzər . 1990 N 1 s 49) Mandelştam haqlı olaraq göstərirdi edir ki, "Osmanlının hərbi uğursuzluqları türklərin bütün fikirlərini tərsinə çevirdi. Türklər başa düşdülər ki, onlar Osmanlı yox türkdülər. Məsələn, Azərbaycan Xalq Cumhuriyyəti yarandıqdan sonra Ə. Hüseynzadənin bu dövləti dəstəkləməsi ilə bağlı yazısında yeni

[34] M.Ə. Hüseynzadə, *a.g.e,* s.73-74.
[35]Aydın Balayev, *Məmməd Əmin Rəsulzadə (1881-1955)* , Elm, Bakı 2011 286, s.27.
[36]F. Ələkbərov, *a.g.e,* s.69.
[37]F. Ələkbərov, *a.g.e.,* s.83.

formalaşan dövləti alqışlamışdır. Yəni Ə. Hüseynzadənin fikirlərində Osmanlıçıq ideyalarının olması fikirini gizlətmək və ya onun Azərbaycan siyasi hərəkatına veridiyi ideoloji dəstəyidə arxa planda saxlamaq yanlışlıqdan başqa bir şey deyil. Onun siyasi fikirlərindəki süjet xəttini izləyərək belə qənaətə gəlmak olar ki, solçu liberal fikirli siyasi xadimlərinin yanında yer almışdır. Əli bəy Hüseynzadənin siyasi fikirlərində dəyişikliklərin olmasına baxmayaraq, onun konsepsiyaları əsasında M. Ə. Rəsulzadə gələcəkdə Azərbaycan istiqlaliyyəti, Azərbaycançılıq və Azərbaycanın müstqilliyi məsələsini formalaşdıraraq onun dövlət yaratmaq hüququnu ortaya qoydu.

## Nəticə

Dövründən asılı olmayaraq, real düşüncə tərzinin hər bir sahədə olduğu kimi siyasətdə də tətbiq edilməsi düzgün addımların atılmasına gətirib çıxarır. XX əsrin əvvəllərində siyasi qarışıqlığın hökm sürdüyü Cənubi Qafqazda bir sıra siyasi istiqamətlərin olmasına baxmayaraq, bunların içərisindən ən dayanıqlıları sıyrılıb eklektizm burulğanından çıxa bildi. Siyasi romantizm və realizm arasında gedən mübarizədə əlbəttə ki reallığı əks etdirən və dövrün həqiqətlərini qəbul edərək, real addımlara söykənən təşkilatlar özlərini qoruyub saxlaya bildilər. Romantizm cərəyanında yer alan təkilatlar isə başqa siyasi qüvvələrin və ideologiyaların təsirindən xilas ola bilmədilər. Doğrudur, siyasi realizm cərəyanında yer alan xadimlər uzaq dövrə uyğun siyasi xətt yürüdə bilməzdilər. Onlar real dövrün tələblərinə uyğun hərəkət edirdilər. Lakin onların atdıqları addımlar mümkünlük dərəcəsinə daha yaxın idi və utopiyalara söykənmirdi. Ancaq onu da nəzərə almaq lazımdır ki, siyasi romantizm cərəyanı mövcud olmasa, dövrə uyğun reallıqları əks etdirən siyasi kosepsiyaların formalaması mümkünsüz olar. Belə ki, XX sərin əvvəllərində meydana gəlmiş, türkizm, islam birliyi, sosializm cərəyanlarında mövcud olan romantizm xətti üzərində zaman zaman dəyişilkilkər edilərək reallıqları əks etdirən siyasi proqramlar meydana gəldi . Əgər XX əsrin ilk illərində siyasi mərkəzçilik (yəni ümümtürk siyasi birliyi və yaxud ümumislam siyasi birliyi) kimi cərəyanların ətrafında siyasi fikirlər formalaşırdısa, əsrin ikinci onilliyində həmin siyasi fikir sahibləri içərisindən realizm xəttinə söykənən azərbaycançı elita formaşdı və bu təbəqə əvvəlcə Rusiya tərkibində muxtariyyat sonra isə müsətqillik tələbi ilə çıxış etdi.

### Ədəbiyyat siyahısı

*Azərbaycan tarixi*, *yeddi cilddə*, V. cild, Elm, Bakı 2008.

*Azərbaycan Mətbuat tarixi antalogiyası*, 2 cilddə, Elm və təhsil, Bakı 2011.

AĞAOĞLU, Ə., *Millət və millətçilik*, Tərəqqi qəzeti, 1909 22 yanvar №16 № 19 29 yanvar №22 5 fevral №28.

AĞAOĞLU, Ə., *Mərəzimizin çarəsi*, Kaspiy 9 yanvar 1904, № 24.

AKALIN, G., *Türk düşüncə və siyasi həyatında Ə. Ağaoğlu*, Az atam, Bakı 2004.

AXUNDZADƏ, Ə., *Müqəddəs peyğəmbərlərin tarixi*, Azənəşr, Bakı1993.

BALAYEV, A., *Mamed Emin Rasulzade (1884-1955)*, izd “Flinta”, Moskva 2009.

BALAYEV, A., *Məmməd Əmin Rəsulzadə (1881-1955)*, Elm, Bakı 2011.

CƏFƏROV, N., *Milli ictimai fikir tariximizdən*, Azərbaycan dövlət nəşriyyatı, Bakı1993.

DÜZDAĞ, E. M., *Türkiyede islam ve irkçılıq meselesi*, Cihad, İstanbul 1976.

ELEKBEROV, F., *Muhammed Emin Rasulzade-nin Dünya görüşü*, Buğra Yayınevi, Konya 2014.

ƏLƏKBƏROV, F., *Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış,* İkinci hissə “Elm və təhsil”, Təknur, Bakı 2014.

HÜSEYNZADƏ, Ə., *Seçilmiş əsərləri*, iki cilddə, I cild, “Şərq-qərb”, Bakı 2007.

HÜSEYNZADƏ, Ə., *Seçilmiş əsərləri*, iki cilddə, II cild, “Şərq və qərb’’, Bakı 2007.

XƏLİLOV, S., *Fəlsəfə: Tarix və Müasirlik, (fəlsəfi komparativistika)* Azərbaycan Universiteti nəriyyatı , Bakı 2006.

KAZEMZADE, F., *Borba za Zakavkazye,* SA SS Press, Stoqolm:2010 (1917-1921).

QUSEYNOV, M.D., *Turkskaya demokratiçeskaya partiya federalistov Musavat v proşlom i nastoyaşem* , Baku 1977.

MANDELŞTAM, A.L., *Vvedeniye Zarevand ( Zavey i Vartun Nalbandyanı) Tursiya i Panturkizm* ( Yayın evi yok) Parij 1930.

MUSTAFAYEV, Q ., *XX əsrrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onu tənqidi*, Maarif, Bakı 1973.

NƏSİBZADƏ, N., *Müsavat və Müsavatçılıq*, Yeni Müsavat № 1 (18), 1991.

RƏSULZADƏ, M.Ə ., *Hümmət və qeyrət vaxtıdır,* Şərqi Rus № 19 14 may 1903.

RƏSULZADƏ, M .Ə., *Edam cəzası* , İrşad № 208, 4 sentyabr 1906.

RƏSULZADƏ, M.Ə ., *Hümmətiül-rical, təqləül-cibal,* Açıq söz, 5 iyun 1917, № 513.

RƏSULZADƏ, M.Ə., *Qafqaz türkləri* , Təknur, Bakı 2012.

RASULZADE, M.E., *O panturkizme v svyazi Kavkazskoy problemoy*, Oksford 1985.

RƏSULZADƏ, M.Ə., *Əsrimizin Siyavuşu,* Xəzər, № 1 , 1990.

RÜSTƏMOV, Y., *Siyasi Hüquqi təlimlər tarixi (mühazirə kursu),* Azərbaycan universiteti nəşriyyatı, Bakı 2004.

SARAY, M., *Azərbaycan türkləri tarixi*, ( Yayın evi yok), İstanbul 1993.

SEYİDZADƏ, D ., *Azərbaycan XX əsrin əvvəllərindəmüstəqilliyə aparan yollar,* Elm, Bakı 1998.

YAQUBLU, N., *Müsavat partiyasının tarixi,* Adiloğlu, Bakı 2012.